Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Amerikan ədəbiyyatının təkrarsız dühası

**Ernest Miller Heminqueyin 120 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2019**

**Tərtibçilər:** **Aynurə Əliyeva**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Amerikan ədəbiyyatının təkrarsız dühası:** Ernest Miller Heminqueyin 120 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad. Respublika Uşaq Kitabxanası ; tərt.ed. A.Əliyeva; ixt.red. və burax.məsul Ş. Qəmbərova ; red. K. Ağazadə. - Bakı : F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2019. - 24 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2019**

## Tərtibçidən

Dünyada heç bir xalqın həyatı və mədəniyyəti beynəlxalq əlaqələrsiz inkişaf etməmiş və edə bilməz. Xalqlar insan yaşayışının bütün sahələrində daima biri-birinə nəzər salmış, biri-birinin təcrübəsindən istifadə etmişlər.

Milyon illər ərzində xalqların gündəlik həyatında özünü göstərən bu zəruri əlaqə mənəvi sərvətlər sahəsində də dərin izlər buraxmış çox gözəl səmərə vermişdir. Öz təbiəti etibarilə haumanist hadisə olan, ümumbəşəri mahiyyət daşıyan bədii yaradıcılığın bütün növləri və formaları həmişə xalqlararası qarşılıqlı əlaqədə inkişaf etmişdir. Hətta qədim zamanlarda dövləti, siyasi, ictimai, dini ayrılıqlara baxmayaraq xalqların folklor nümunələri dənizləri, dağları adlayaraq bir ölkədən digərinə keçmiş, müxtəlif yeni çalarlar alaraq başqa xalqların mənəvi aləminə daxil olmuşdur. Sonralar bu keyfiyyət yazılı ədəbiyyatda və sənətin digər formalarında daha artıq özünü göstərmişdir. Biz Hoşersiz, Ərəstunsuz, Əflatunsuz nə cür Roma, Vizantiya mədəniyyətlərini təsəvvür edə bilərik? Firdovsini, Xəyyamı, Sədini Azərbaycanın Xəqani, Nizami, Füzuli kimi ölməz şəxsiyyətlərini necə bu köklərdən ayıra bilərik? Bu mümkün deyil. Necə ki, bütün bunlarsız və bir sıra başqa xalqların yaratdığı böyük şəxsiyyətlərsiz, onların parlaq mədəniyyət inciləri nəzərə alınmadan Avropa renessans və humanist mədəniyyətlərini təsəvvür etmək olmaz.

Xalqın mənəvi aləmi onun yaradıcılıq dühasında, bədii zövq və qabiliyyətində, qiymətli sözündə, gülüşündə əfsanə və nağıllarında özünü tapır. Xalqın söz xəzinəsi, folkloru həmişə yazılı ədəbiyyata qida verən mənbədir. Və bu mənbə əsasında qüdrətli milli ədəbiyyatlar yüksəlmiş, inkişaf etmişdir. Şərqdə də belə olmuşdur, Qərbdə də belədir. Dünyanın bütün xalqlarının ədəbiyyatında söz sənətinin başlanğıcı folklordan

gəlir. V.Q.Belinskinin sözlərinə diqqət yetirək: “Ədəbiyyat-azad insan sözləri ilə ifadə olunur ki, bu da həm səs, həm lövhə, həm də müəyyən aydın ifadə olunmuş təfəkkürdür. Buna görə də ədəbiyyat incəsənət növlərinin bütün başqa ünsürlərinə malik olub, ayrılıqda onların hər birindən tamamilə istifadə etmiş olur. Ədəbiyyat bütün küll halında, incəsənətin tərkibindən ibarət olub, onun bütün cəhətlərini əhatə etməklə bərabər, bütün fərqlərini müəyyən və aydın bir şəkildə ehtiva edir”. “Ədəbiyyat-insanın, cəmiyyətin hisslərini, düşüncələrini, arzu və istəklərini obrazlı şəkildə əks etdirən söz sənətidir”. Bu söz sənətinə qiymətli inciləri ilə töhfə verən söz ustadlarından biri də Amerikan yazıçısı Ernest Miller Heminqueydir. Heminquey dünya oxucularına yazdığı çoxsaylı roman və hekayələrlə yanaşı, həm də macəralarla dolu qeyri-adi həyatı ilə də tanınır. Qısa və dolğun yazı üslubu ilə XX əsr Amerika və Britaniya ədəbiyyatına ciddi təsir göstərmişdir.

Bu il böyük qələm sahibi Ernest Miller Heminqueyin 120 illik yubileyi qeyd olunur. Ədibin yubileyi münasibətilə işlədiyimiz bu vəsait iki hissədən ibarətdir. Birinci hissə *“Amerikan ədəbiyyatının təkrarsız dühası”* adlanır. Bu hissədə Ernest Miller Heminqueyin həyat və yaradıcılığından bəhs edilir. İkinci hissədə isə onun yaradıcılığı ilə bağlı keçirilə biləcək tədbirlərdən söhbət açılır.

## Həyat və yaradıcılığı

Amerikan yazıçısı Ernest Miller Heminquey Çikaqo yaxınlığındakı Ouk-Park şəhərciyində doğulmuşdu. Ailədə altı uşaqdan ən böyüyü idi. Anası opera müğənnisi, 1928-ci ildə həyatına intiharla son qoyan atası isə həkim olmuşdu.

Orta təhsilini başa vurduqdan sonra cəbhəyə getmək istəsə də, gözlərində problem yarandığından arzusuna çatmamışdı. Bir müddət Kanzasda çıxan "Star" qəzetində çalışdıqdan sonra könüllü dəstənin tərkibində Avropaya, Birinci Dünya müharibəsi cəbhələrinə yollana bilmişdi. Amerika Qırmızı Xaçının sürücüsü kimi hərbi əməliyyatlarda iştirak etmiş, ayağından yaralanmışdı. İgidliyinə görə İtaliyanın iki hərbi medalı ilə təltif olunmuşdu.

Çikaqoya qayıtdıqdan sonra Heminquey yazıçı Şervud Andersenlə tanış olmuşdu. Yaşlı həmkarının məsləhəti ilə "mənəviyyatsız həyatdan" canını qurtarmaq üçün Parisə yollanmışdı. Amerikanı tərk etməmişdən əvvəl, 1921-ci ildə Elizabet Riçardsonla evlənmişdi. Bu yazıçının dörd rəsmi evliliyindən birincisi idi.

Parisdə E.Heminquey həmvətəni olan yazıçılarla – Gertruda Stayn, Ezra Paund, Skott Fitsceraldla görüşmüş, "Toronto star" qəzeti üçün yazmağa başlamışdı. Müəllifin "Hekayələr və üç şeir" (1923), "Bizim zəmanəmizdə" (1924) adlı ilk kitabları da Parisdə çıxmışdı. 1926-cı ildə isə Heminquey ədəbi tənqidin xeyirxahlıqla qarşıladığı "Günəş çıxır" romanını çap etdirdi. Romanda Fransa və İspaniyada yaşayan amerikalıların həyatından bəhs olunurdu. Bu insanların arasında müəllifin özü də vardı. Onlar Birinci Dünya müharibəsindən sonra meydana çıxan "itirilmiş nəslin" nümayəndələri idilər.

"Qadınsız kişilər" (1927) kitabının nəşrindən sonra Heminquey Parisdən ABŞ-a qayıtmışdı. O, Florida ştatında,

Karib dənizi sahilindəki Ki-Vest kurort şəhərciyində məskunlaşmış və ikinci romanı “Əlvida, silah!” ı yazıb başa çatdırmışdı. Nisbətən sonrakı dövrün məhsulu olan “Zəng kimin üçün çalınır” (1940) romanı ilə birlikdə “Əlvida, silah!” üslub gözəlliyi və ifadəliliyi baxımından Heminqueyin ən yaxşı əsəri sayılır.

İspaniyadakı vətəndaş müharibəsi vətəndaş və yazıçı Heminqueyin bir sıra diqqətəlayiq cəhətlərini üzə çıxarmışdı. O, hərbi jurnalist kimi iç savaşın ən qaynar nöqtələrində olmuşdu. İnsan qəhrəmanlığının və xəyanətinin dəhşətli səhnələrini müşahidə etmişdi. “Beşinci dəstə” (1937) pyesi və “Zəng kimin üçün çalınır?” (1940) romanı bu dövrün acı ibrət dərslərinin nəticəsi kimi meydana çıxmışdı.

Heminquey 1940-cı ildə Havana yaxınlığında ev almışdı. Yazıçının bütün sonrakı həyatı Kuba ilə sıx bağlılıq şəraitində keçmişdi. İkinci Dünya müharibəsinin başa çatdığı ərəfədə o, yenidən cəbhəyə yollanmış, reportaj və oçerklərində müttəfiqlərin Normandiyaya desant çıxarmasını təsvir etmiş, amerikan qoşunları ilə birlikdə Parisə daxil olmuşdu. Hərbi jurnalistlərlə bağlı Cenevrə konvensiyasının tələblərini pozduğuna görə Heminquey hərbi tribunal qarşısında dayanmaq təhlükəsi ilə üzləşmişdi. Lakin bu, yazıçının qəhrəmanlıq və rəşadətinə görə Bürünc Xaç medalı ilə təltif edilməsinə mane ola bilməmişdi. On illik fasilədən sonra 1950-ci ildə Heminquey “Çayın o tayında, ağacların kölgəsində” romanını oxucuların mühakiməsinə vermişdi. İki il sonra “Layf” jurnalında dərc etdirdiyi “Qoca və dəniz” povesti ilə çıxdı. “İnsanı məhv etmək olar, amma məğlub etmək mümkün deyildir” – əsərin əsas leytmotivi müəllifin bu qanadlı ifadəsində öz əksini tapmışdı. İnsanın gücünə, iradəsinə, dözümünə və əbədiyyət sevgisinə ehtiraslı himn olan bu əsər heç kimi laqeyd buraxmadı. Növbəti

il “Qoca və dəniz” Pulitser mükafatına layiq görüldü, Ernest Heminquey milyonların sevimli müəllifinə çevrildi.

1956-cı ildə Heminquey Parisdə olarkən Riç hotelinin zirzəmisindən uzun illər qoyub getmiş olduğu çemodanını tapır. Onun içindən əldə etdiyi Paris həyatından bəhs edən gündəliyi üzərində işləyir. Lakin kitab onun ölümündən sonra dördüncü arvadı Meri Velş Heminqueyin səyi nəticəsində 1964-cü ildə işıq üzü görür.

Kitabın əksər səhifələri Frensis Skott Fitsceralda həsr olunmuşdur. Burada o, Frensis Skott Fitsceraldın davranışının, həyat tərzinin təsvirinə geniş yer vermişdir. “Günaşırı və ya iki gün sonra Skott öz kitabını mənə gətirdi. Kitabın üzlüyü alabəzək idi, yadımdadır, mənə onun belə aldadıcı, zövqsüz, sürüşkən olması narahat edici gəlirdi. O, ən pis elmi-fantastik romanın üzlüyünə oxşayırdı. Skott məndən bunlara fikir verməməyimi xahiş etdi: bu əsərin süjetində mühüm rol oynayan Lonq-Aylend şossesindəki reklam lövhəsinin təhrikidir. O, dedi ki, əvvəlcə bu üzlük onun xoşuna gəlirdi, amma indi yox. Oxumaqdan qabaq mən bu üzlüyü çıxartdım. Kitabı oxuduqdan sonra, anladım ki, Skott özünü necə aparmasından və nə etməsindən asılı olmayaraq, mən anlamalıyam ki, bu bir xəstəlikdir, ona kömək etməli və ona yaxşı bir dost olmağa çalışmalıyam. Onun çox, lap çox, tanıdığımdan da çox yaxşı dostları vardı. Və gərəkli olub olmamağımdan asılı olmayaraq mən özümü də onların sırasına aid etdim. Əgər o, “Böyük Qetsbi” kimi belə bir möhtəşəm kitab yaza bilibsə, mən heç şübhə etmirəm o, bundan da yaxşısını yaza bilər. O vaxt mən Zelda ilə hələ tanış deyildim və buna görə də hər şeyin dəhşətli dərəcədə onun əleyhinə olmasını bilmirdim. Zelda Skottu onun işinə belə qısqanırdı...” Ernest Heminquey

# Yubiley tədbirlərinin keçirilməsi

İstedadlı yazıçı-jurnalist Ernest Miller Heminqueyin anadan olmasının 120 illik yubileyi ilə əlaqədar olaraq, bir sıra tədbirlər, kitab müzakirəsi, oxucu konfransı, rəsm müsabiqəsi, ədəbi-bədii gecə keçirilə bilər. Şairi sevdirmək, yaradıcılığını gənc nəslə və şagirdlərə tanıtmaq məqsədilə kitabxanada ilk növbədə müxtəlif başlıqlar altında kitab sərgisi təşkil olunmalıdır. “Amerikan ədəbiyyatının təkrarsız dühası”, “İti qələmli jurnalist”, “Böyük söz ustadı – Heminquey”, “Əbədiyyətə aparan qələm ustadı – Heminquey”, “Həyatını ağ vərəqlərə köçürən insan”, “Ernest Heminquey məktubları”, “Qeyri-adi qələm adamı Heminquey” və s.















Ernest Miller Heminqueyin şəxsiyyətini və qələmini oxuculara çatdırmaq məqsədilə kitabxanada müxtəlif tədbirlər keçirilir. Təbdirlər yazıçının əsərlərini oxuculara mənimsətmək və sevdirmək üçün nəzərdə tutulur. Kitabxanada keçiriləcək ənənəvi tədbir forması kimi kitab müzakirəsi də keçirilə bilər. Oxucuların istəyini nəzərə alan kitabxanaçı oxucularla birgə Ernest Miller Heminqueyin "Qoca və dəniz" adlı kitabını müzakirə edə bilərlər. Kitabxanaçı əvvəlcə adı çəkilən bu kitab haqqında məlumat verir.

**Kitabxanaçı:** "Qoca və dəniz" Ernest Miller Heminqueyin dünya şöhrətli əsəridir. Əsərdə ucsuz-bucaqsız okeana xırdaca bir qayıqla ova çıxan tənha qocadan bəhs edilir. Öncəki bütün ovları uğursuz nəticələnən qoca bu dəfə nəhəng bir balıq ovlayır. Bu zaman isə o, öz şikarını köpək balıqlarının hücumundan qorumaq  üçün gərgin mübarizə aparır.

Baş qəhrəman prototipi müəllifin yaxından tanıdığı Kubalı qoca balıqçıdır.

*Tədbirin sonunda məktəblilər sözügedən əsərdən kiçik səhnəciklər nümayiş etdirirlər.*

Ernest Miller Heminquey yubileyi ilə bağlı kitabxanada keçirilən tədbirlərdən biri də *"Biblioqrafik icmal"* dır. Kitabxanaçı biblioqrafik icmal keçirərkən oxuculara ədibin kitabları haqqında məlumat verir.

*Kitabxanaçı:* "Əcəl zəngi" romanı Ernest Miller Heminqueyin dünya şöhrətli əsərlərindəndir. Yaradıcılığından qırmızı xətt kimi keçən ispan mövzusuna sadiq qalan yazıçı bu əsərində 1936-39-cu illərdə bu ölkədə baş verən vətəndaş müharibəsinin insanların taleyində qoyduğu dərin psixoloji izləri ön plana çəkmiş, müharibə dəhşətlərini özünəməxsus bir şəkildə təsvir etmişdir.

Ernest Miller Heminqueyin "Hekayələr" adlı kitabı Bakı, "Altun kitab"-2018-ci ildə nəşr olunub və 208 səhifədən

ibarətdir. Elə yazıçılar var ki, onların hekayələri insanı irihəcmli roman qədər özünə cəlb edir. Elə sənətkarlardan biri də məşhur Amerika yazıçısı Ernest Miller Heminqueydir. Onun hekayələrində artıq sözə rast gəlinmir, oxucunun diqqətinə əhəmiyyətsiz xırdalıqlar yox, gerçək hadisələr təqdim olunur. Bu kitabda söz ustasının müxtəlif illərdə qələmə aldığı hekayələr toplanmışdır.

Bundan başqa kitabxanaçı iştirakçılara yazıçının "Qoca və dəniz", "Qadınsız kişilər", "Seçilmiş əsərlər" və s. kitablar haqqında hərtərəfli məlumat verir.

Böyük yazıçı Ernest Miller Heminqueyin yubileyi ilə əlaqədar olaraq, *"İti qələmli jurnalist"* adlı **dəyirmi masa** təşkil etmək olar. Dəyirmi masa zamanı tələbələr ədibin bir şəxsiyyət kimi həyatdakı və dünya ədəbiyyatındakı rolu, mövqeyindən bəhs edir.

*Kitabxanaçı:* Böyük qələm adamı, 1899-cu il iyul ayının 21-də anadan olub. Atası onu çox sevir və yanından ayırmırdı. Artıq Ernestin 3 yaşı olanda atası ona tilov alaraq balıq tutmağa aparmışdı. Gələcəyin məşhur yazıçısı 8 yaşı olanda artıq İllinoys ştatında olan bütün ağacların, quşların, balıqların və vəhşi heyvanların adlarını əzbər bilirdi.

Təbiətlə yanaşı, Ernest həm də ədəbiyyat həvəskarı idi. Onu kitablardan ayrı təsəvvür etmək mümkün deyildi. Artıq 10 yaşında atasının şəxsi kitabxanasındakı bütün kitabları oxumuşdu. Amma atasından fərqli olaraq, Ernestin anası oğlunun musiqiçi olmasını arzulayırdı. Bu məqsədlə o, Ernesti violonçel sinfinə qoymuşdu və onu tez-tez kilsəyə apararaq, kilsə xorunda oxumağa məcbur edirdi. 12 yaşı olanda balaca Ernestin həyatında önəmli bir hadisə baş verdi. Babası ona 20 kalibrli təklülə ov tüfəngi bağışladı. Bu hədiyyə nəvə ilə baba arasında möhkəm dostluğa səbəb oldu. Babasının ov haqqında danışdığı maraqlı əhvalatların çoxu sonralar Ernestin əsərlərində

öz təsvirini tapdı. Bir sözlə, babasının ov əhvalatları Ernestin ədəbiyyata olan həvəsini daha da artırdı və o, ömrü boyu babasını xoş xatirələrlə xatırladı. Atası da Ernestin ov həvəsinə mane olmadı, əksinə, oğlunu daha da bu işə həvəsləndirdi.

Gənc Ernest bu təsir altında yazdığı ilk hekayəsini də ova həsr etdi. Hekayənin qəhrəmanı simasında isə əsasən atasını və bir az da babasını canlandırmışdı. Hekayənin qəhrəmanı isə sonda ovda faciəli şəkildə həlak olurdu. Nə qədər qəribə olsa da, Ernestin atası Klarens də hekayədə təsvir edildiyinə oxşar şəkildə intihar etmişdi. Heminqueyin ilk hekayəsi “Skrijal” adlı məktəb jurnalında dərc edilmişdi. Hindu folkloru əsasında yazılan bu hekayə “Manitanın mühakiməsi” adlanırdı. Bunun ardınca məktəb jurnalında onun “Bütün iş dərinin rəngində idi” adlı hekayəsi dərc olundu. Hekayədə boksun pərdə arxasında aparılan çirkli kommersiya tərəflərindən danışılırdı.

1916-cı ildə Ernest sərbəst şəkildə Şimali Miçiqan ştatına səyahətə çıxdı. Bu səyahət ona yeni əsərlərin yazılması üçün çoxsaylı mövzular verdi. Səyahətdən qayıdandan sonra “Jinqan zəngirləri” adlı hekayəsini yazdı. Bu hekayəsi də Ocubey qəbiləsindən olan ovçunun intiqamından bəhs edirdi. Bunun ardınca isə Ernest “Trapesiya” adlı məktəb qəzeti üçün idman yarışları, konsertlər haqqında reportajlar hazırlamağa başladı. Məktəbi başa vurduqdan sonra valideynlərinin universitetdə oxumaq tələblərinə məhəl qoymadan o, Kanzas Siti şəhərinə gələrək, yerli “Star” qəzetində işləməyə başladı. Ona şəhərin baş xəstəxanası, dəmiryol vağzalı və polis şöbəsi olan hissələrində reportajlar hazırlamaq tapşırılmışdı.

Gənc Ernest ona tapşırılan sahələrdə baş verən hadisələri geniş işıqlandırırdı. Reportajlar hazırlayan zaman o, oğrular, muzdlu qatillər, fırıldaqçılar və digər cinayətkar ünsürlərlə tanış olurdu. Bu tanışlıqlar ona sonralar insanları cinayətə sürükləyən səbəblərlə yaxından tanış olmağa, onların ən cüzi jestlərini

yadında saxlamağa və sonradan onlardan qəhrəmanlarının təsvirində istifadə etməyə imkan verdi. Həmin dövrdə Ernestin hadisə yerindən hazırladığı operativ reportajlar onu həm redaksiya rəhbərliyinin, həm də oxucuların sevimlisinə çevirmişdi.

Hərbi xidmət yaşı çatanda Ernest orduda xidmət etmək üçün müvafiq qurumlara müraciət etdi. Ancaq o, yaxşı görmürdü və ona görə də uzun müddət Ernesti hərbi xidmətə qəbul etmədilər. Buna baxmayaraq, yaxın bir tanışı vasitəsilə "Qırmızı xaç"ın sürücüsü kimi İtaliyaya göndərilməyə nail oldu. Milan şəhərində ilk gündən onu və "Qırmızı xaç"la gələn digər könüllüləri partladılmış hərbi sursatlar zavodunun ərazisini təmizləməyə göndərdilər. İlk dəfə ölümlə üz-üzə qalan Ernest sonralar yazdığı "Günortadan sonra ölüm" əsərində bunu olduqca təsirli şəkildə təsvir edib. Ertəsi gün isə Heminqueyi sanitar maşınının sürücüsü kimi Şio şəhərinə birbaşa cəbhə xəttinə göndərdilər. Ön hissədə Ernestə səngərlərə ərzaq aparmaq tapşırıldı. O, güllə yağışı altında bu işin öhdəsindən həvəslə gəlməyə başladı. 1918-ci il iyul ayının 8-də Ernest yaralı italiyalı snayperi döyüş meydanından çıxararkən avstriyalı əsgərlərin pulemyot və minomyotlardan açdığı atəş altına düşdü və 26 qəlpə yarası aldı. Amma həkimlər onun həyatını xilas edə bildilər. Həkimlər onun bədənində 200 ağır və yüngül yara yeri aşkar etmişdilər. Bu qədər yara ilə sağ qalmaq həqiqətən də, möcüzə idi. Heminqueyin diz qapağı zədələndiyindən onu həkimlər alüminium protezlə əvəz etmişdilər. Sağalandan sonra hərbi xidmətə yararsız adam kimi ordudan tərxis olundu. Onun barəsində İtaliya cəbhəsində vuruşan ilk qəhrəman kimi bütün Amerika qəzetləri geniş yazılar vermişdi. İtaliya kralı isə öz həyatını risk altında qoyaraq yaralı italiyalı snayperi cəbhə xəttindən çıxardığı üçün Heminqueyi "Fədakarlığa görə" gümüş medal və "Hərbi xaç" ordeni ilə təltif etdi.

Müharibədən qayıtdıqdan sonra təxminən 1 il ərzində Heminquey yaralarını müalicə etdirməklə məşğul oldu. 1920-ci ildə o, yenidən jurnalistika fəaliyyəti ilə məşğul olmaq üçün Toronto şəhərinə getdi. O, bu şəhərdə çıxan "Toronto star" qəzetində işə düzəldi. Qəzetin təsisçisi ona istənilən mövzuda yazmağa icazə vermişdi. Lakin o, yalnız dərc olunan yazıya görə qonorar verəcəyini söyləmişdi. Əvvəlcə, Ernest amerikalıların incəsənətə olan həvəskarlar səviyyəsində qeyri-ciddi yanaşmasını ələ salan "Ləngər vuran sərgilər" və "Pulsuz üz qırxdırmağa cəhd edin" adlı daha çox satirik xarakter daşıyan məqalələrini yazdı. Sonra isə müharibə və evdə oturaraq heç kimə lazım olmayan müharibə veteranları, həmçinin qanqsterlər və axmaq məmurlarla bağlı daha ciddi mövzuları qələmə almağa başladı.

1921-ci il sentyabr ayının 21-də Ernest gənc pianoçu Hedli Riçardsonla evləndi və onunla birgə çoxdan arzuladığı Parisə getdi. Parisdən Ernest "Toronto star" qəzeti üçün hekayələr və müxtəlif səviyyəli reportajlar hazırlayaraq göndərirdi. Amerikada Avropa həyatını təsvir edən belə yazılar böyük maraq və həvəslə oxunurdu.

Ernest Heminquey ədəbiyyat sahəsində ilk böyük uğuru 1926-cı ildə əldə etdi. Həmin il onun 1920-ci illərdə İspaniyada və Fransada yaşayan və cəmiyyət üçün itirilmiş gənclərin həyatından bəhs edən "Və Günəş doğur" adlı romanı çap edildi. 1927-ci ildə Heminqueyin "Qadınsız kişilər", 1933-cü ildə isə "Qalib heç nə almır" adlı seçilmiş hekayələri çapdan çıxdı. Bütün bunlar da onu oxucular arasında qısa hekayələr müəllifi kimi məşhurlaşdırdı. Bu hekayələr arasında "Qatillər", "Frensis Makomberanın uzun sürməyən xoşbəxtliyi" və "Kilimancaro qarları" daha çox oxucu sevgisini qazanmışdı. Amma Qərbdə Heminqueyə 1929-cu ildə yazdığı "Əlvida silah" romanı daha böyük şöhrət gətirdi. Romanda amerikalı könüllü

ilə ingilis tibb bacısının arzuolunmaz sonluqla bitən sevgisindən danışılır. Bu kitab həmin dövrdə dünyanı bürüyən iqtisadi böhrana baxmayaraq, qısa müddətdə satılıb qurtardı.

1930-cu ilin payızında yazıçı avtomobil qəzasına düşdü və başından, həmçinin bədəninin müxtəlif yerlərindən ağır zədələr aldı. O, yarım il müalicə olundu. Amma ağır qəza və uzun müalicə onun ədəbi yaradıcılığına mane ola bilmədi. 1932-ci ildə Heminquey "Günortadan sonra ölüm" adlı romanını yazdı. Bu roman çapdan çıxan kimi bestsellərə çevrildi, yazıçıya Amerika və ondan kənarda yeni şöhrət gətirdi.

Ernest Heminqueyin ruhunda, qanında ovçuluğa böyük həvəs vardı. Ona görə də yazıçı daim ova can atırdı. 1933-cü ilin sonlarında o, Afrikadakı Tanqanika gölü ətrafına ova getdi. Amma ovda xəstələndi və 1934-cü ilin yanvarında vəziyyəti ağırlaşdı. Yazıçının olduğu Dar-əs-Salam şəhərinə təcili şəkildə xüsusi təyyarə göndərərək, onu İngiltərənin bölgədəki hospitalına apardılar. Həkimlər onu çətinliklə də olsa, sağalda bildilər. Həkimlər ona ovçuluqla məşğul olmağı qadağan etsə də, yazıçının ovu uğurlu olmuşdu. O, Afrikada 3 şir, 27 antilop, bir neçə vəhşi öküz və digər heyvanlar ovlamışdı. Afrikaya ov səfəri təəssüratları barədə 1935-ci ildə yazıçının "Afrikanın yaşıl təpələri" adlı kitabı çıxdı.

1937-ci ildə isə yazıçının "Olsun, olmasın" romanı çap olundu. O, bu romanda iqtisadi böhran illərində Floridada yaşayan bir nəfərin məcburən qaçaqmalçılara qoşulduğunu və onun əzablarını təsvir edir. Həmin dövrdə yazıçı dünyada baş verən siyasi proseslərlə də yaxından maraqlanırdı. Bu maraq da onu İspaniyaya gətirib çıxardı. O, burada Frankoya qarşı vuruşan respublikaçıların sırasına qoşuldu. Heminqueyin çağırışı əsasında Şimali Amerika Qəzetçilər Assosiasiyası İspaniyada baş verənləri işıqlandırmaq üçün rejissor Yoris İvensin rəhbərliyi altında çəkiliş qrupu göndərdi. Nəticədə

bölgədə baş verən hadisələri əks etdirən və ssenari müəllifi Heminquey olan "İspaniya torpağı" adlı sənədli film çəkildi. Heminquey həmçinin İspaniyada fransız yazıçısı Antuan de Sent Ekzüperi ilə dostlaşdı. Yazıçı "Beşinci kolonna" adlı pyesini də İspaniyada yazdı. O, döyüş bölgəsində, həmçinin amerikalı qadın jurnalist Marta Hellhornla tanış oldu. Evə qayıdan kimi Heminquey Marta ilə evləndi. 1940-cı ildə isə Ernest Heminqueyin İspaniyadakı vətəndaş müharibəsinə həsr etdiyi "Kim üçün çalınır zəng" adlı romanı çapdan çıxdı.

30-cu illərdə Heminquey yaradıcılığında müəyyən geriləmə nəzərə çarpırdı. Bunun da səbəbi "müvəffəqiyyətdən başı gicəllənən" yazıçının "ulduz xəstəliyinə" tutulması idi. İspan korridasına maraq, Afrikada şir ovuna çıxmaq və digər ekzotik əyləncələr əslində Heminqueyin cəmiyyətdə olduğundan fərqli görünmək arzusundan irəli gəlirdi. Təbii ki, öz-özünə münasibətdə yol verilən bu saxtakarlıq yazıçının yaradıclığından yan keçə, onun əsərlərinin səmimiyyət və həyatiliyinə təsirsiz qala bilməzdi. Doğrudur, yazıçının ispan korridasından bəhs edən "Günortadan sonra ölüm" (1932), yaxud "Afrikanın yaşıl təpələri" (1935) sənədli povestləri ümumən maraqlı idi, lakin burada həqiqi Heminquey sənətkarlığı duyulmurdu. Tənqidçilərin fikrincə, bu dövrün ən uğurlu əsərləri "Frensis Makomberin ani xoşbəxtliyi" və "Klimancaro qarları" (1932) kimi hekayələr sayıla bilərdi.

1941-ci ildə II Dünya müharibəsi ərəfəsində Heminquey Baltimorda idi. O, burada yenə də günlərini "Pilar" adlı şəxsi kateri ilə balıq ovunda keçirirdi. 1941-ci il dekabrın 7-də Yaponiya ABŞ-ın Sakit okeandakı Perl-Harbor adasındakı hərbi bazasına hücum etdi. Bundan sonra Heminquey müharibəni işıqlandırmaq üçün Londona getdi. Londona getməzdən əvvəl isə yazıçı əks-kəşfiyyat qrupu yaradaraq "Pilar" adlı kateri ilə alman sualtı qayıqlarının və casusların üzə çıxarılması

əməliyyatlarında iştirak etdi. Müharibədə şəxsən iştirak etmək istəyi nəticəsində yazıçı Almaniya və işğal edilmiş Fransa ərazilərinin müttəfiq qüvvələrinə məxsus təyyarələrlə bombardman edilməsi əməliyyatına qatıldı.

1949-cu ildə yazıçı yenidən Kubaya gedərək, burada yaşamağa başladı. 1952-ci ildə ona dünya şöhrəti gətirəcək "Qoca və dəniz" povestini yazdı. Povestdə dənizdə təkbaşına taleyin hökmünə buraxılan və köpək balıqları ilə yaşamaq uğrunda mübarizə aparan qoca balıqçıdan danışılır. Bu mübarizə o qədər təsirli təsvir edilib ki, oxucunu özü də bilmədən ruhən baş verən hadisələrin iştirakçısına çevirilir. "Qoca və dəniz" povesti beynəlxalq aləmdə dərhal böyük əks-sədaya səbəb oldu. 1953-cü ildə bu povestə görə Ernest Heminqueyə beynəlxalq "Pulitser" mükafatı verildi. Həmin il Afrikaya gedən Heminquey təyyarə qəzasına düşdü, ancaq bəxti gətirdi və sağ qaldı. 1954-cü ildə isə Ernest Heminquey hər bir yazıçının arzuladığı, ancaq çox azının ala bildiyi ədəbiyyat sahəsində "Nobel" mükafatına layiq görüldü. Bu, yazıçının fəth etdiyi ən yüksək zirvə, yaradıcılığına verilən əvəzsiz töhfə idi. Bundan sonra, 1956-cı ildə Heminquey "Həmişə səninlə olan bayram" adlı avtobioqrafik əsərini yazdı. Əsərdə onun 1920-ci illərdə Parisdə keçirdiyi həyatından bəhs olunur. Bu əsər Heminqueyin ölümündən sonra çapdan çıxdı.

Müharibədən sonra yazıçı Kubaya köçdü. 1960-cı ildə Kuba ətrafında baş verən hadisələr Heminqueyi ABŞ-a qayıtmağa məcbur etdi. O, bu dəfə özünə yaşamaq üçün Aydaxo ştatındakı Ketçum adlı şəhəri seçdi. Amma artıq həyat yazıçını yeni sınaqlara çəkməyə hazırlaşırdı.

Heminquey həyatında dəfələrlə ölümlə üzləşmiş və qəzalara uğramışdı. Lakin hər dəfə ölümdən qaça bilmişdi. Bu qəzalar zamanı, həmçinin I Dünya Müharibəsində aldığı yaralar onun sağlamlığına mənfi təsir etmişdi. Ötən əsrin 50-ci illərinin

ortalarından başlayaraq, yazıçı depressiyadan və paranoyyadan əziyyət çəkməyə başladı. Ona elə gəlirdi ki, hər yerdə ABŞ-ın Federal Təhqiqat Bürosunun (FTB) əməkdaşları tərəfindən izlənir. Onu xəstəxanaya aparıb, cərəyan verməklə müalicə etməyə başladılar. Bu isə ağır nəticə verdi. 20 seansdan sonra Heminquey yaddaşını itirdi. O, öz fikrini sərbəst şəkildə ifadə etmək üçün bir kəlmə belə yaza bilmirdi. Vəziyyətinin ağırlaşdığını görüb, Heminquey özünü öldürmək qərarına gəldi. O, özünü necə öldürəcəyini bir neçə dəfə dostlarına da nümayiş etdirmişdi: Tüfəngi ayaqlarının arasına qoyaraq lüləni çənəsinin altına dirəyir və böyük barmağı ilə tətiyi çəkir. O vaxt dostları bunu zarafat hesab edərək, qəhqəhələrlə qarşılamışdılar. Heminqueyin həyatını tədqiq edən şəxsi bioqrafı F.Yanq yazır ki, məşhur yazıçının bütün həyatı ölüm və intihardan qaçmaqdan ibarət olub. Bu amil də onun yaradıcılığında güclü iz buraxıb. Yanqın sözlərinə görə, Heminqueyin psixikasında sonralar özünü göstərən qorxu hissləri və nevroz onun həyatında dəfələrlə qəzaya düşməsi, Afrikaya səfəri zamanı ağır xəstələnməsi və bir də I Dünya Müharibəsi zamanı ağır yaralanması ilə əlaqədar olub.

Heminquey ilk dəfə özünü 1961-ci il aprel ayının 16-da öldürmək istəmişdi. Yazıçının həyat yoldaşı Meri təsadüfən qonaq otağına girəndə onun tüfəngə patron qoyduğunu görmüşdü. Stolun üstündə isə Heminquey tərəfindən yazılmış vəsiyyətnamə vardı. Meri tələsik yazıçını müalicə edən həkimi çağırmış və o, çətinliklə də olsa Heminqueyi öz fikrindən daşındıra bilmişdi. Buna baxmayaraq, ertəsi gün yazıçı qonaq otağının qapısını arxadan bağlayaraq, yenidən özünü öldürmək istəmişdi. Ancaq yaxınları bundan vaxtında xəbər tutaraq onun əlindən silahı güclə ala bilmişdilər. Bundan sonra Heminqueyi yenidən psixiatrik klinikaya müalicəyə göndərdilər. Ancaq hər yerdə onun gözünə FTB-nin izləyiciləri görünürdü. O,

klinikadan dostuna zəng vuraraq, xəstəxanada da FTB əməkdaşlarının onu izləməsindən şikayət etmişdi. Təxminən 2 aydan artıq davam edən müalicədən sonra yazıçını evə buraxdılar. Bundan bir neçə gün sonra, 1961-ci il iyul ayının 21-də yazıçı əhatəsində olan yaxınlarının və onun hər addımını nəzarət altında saxlayan həyat yoldaşı Merinin diqqətindən yayınaraq özünü öldürdü. Bu dəfə isə o özündən sonra heç bir vəsiyyətnamə qoymamışdı.

Kitabxanada oxucular tərəfindən sevilən tədbirlərdən biri də ədəbi-bədii gecədir. Səhnə yazıçının şəkilləri ilə bəzədilir. Onun əsərlərindən müxtəlif obrazların şəkilləri zalın divarından asılır. Çoxlu qonaqlar, uşaq şair və yazıçıları, müəllim və şagird heyəti dəvət olunur. Ernest Miller Heminqueyin kitablarından ibarət kitab sərgisi səhnəyə rəngarənglik verir.

İlk olaraq aparıcı qismində iki şagird səhnəyə daxil olur. Ədəbi-bədii gecəni açıq elan edərək, qonaqları salamlayırlar.

**I Aparıcı:** Salam, əziz qonaqlar, dəyərli tədbir iştirakçıları, hamınızı 120 yaşlı həmişəyaşar, dünya ədəbiyyatımızın sönməz ulduzu sayılan dahi yazıçı Ernest Miller Heminqueyin ədəbi-bədii yaradıcılıq gecəsində xoş gördük. M.Qorkinin fikrincə: “Elə bir ölkə yoxdur ki, o, böyük söz ustası yetirməmiş olsun”.

**II Aparıcı:** Bu gün bizləri buraya toplayan məhz Ernest Miller Heminquey yaradıcılığının hərarətidir. Onun kövrək qəlbindən qopub gələn o nəhəng əsərlər yazıçının qeyri-adi istedadından xəbər verməkdədir. Onun əsərlərinə nəzər saldıqda, cansız bir qələmin lal vərəqlərə nə qədər can verdiyini, həyat verdiyini və necə böyük gözəlliklər yaratdığının şahidi oluruq. Bir qələm həyatı, yaşamı bu qədər gözəl, incə əks etdirə bilərmi?.. Belə bir dahi haqqında söz açmaq üçün sözü qonaqlarımıza verək. Onların yazıçı haqqında dəyərli məlumatlarını dinləmək əminəm ki, hamımızın qəlbincədi.

**I Aparıcı:** “Böyük Amerika maarifçisi, görkəmli əsərlər ustası, mütəfəkkir yazıçı Ernest Miller Heminqueyin əsərləri dünya ədəbiyyatının nadir incilərindən biridir. E. Heminquey əsərləri əsasən qeyri-adi bir əsərdir. Yüz iyirmi il bundan əvvəl yazılmasına baxmayaraq, bu əsərlər dünya ədəbiyyatının çox saylı nadir nümunələri kimi hələ bu gün də öz ilkin təravətini, bədii dəyərini itirməyib və dünyanın bütün guşələrində müxtəlif yaşlı oxucular tərəfindən sevilə-sevilə oxunur.

**II Aparıcı:** Dünya ədəbiyyatında hətta ölümü ilə ədəbiyyat yaradan, seçdiyi ölümü belə şöhrəti üçün “işlətməyə” müvəffəq olan nadir yazıçılardan biri, “Nobel” mükafatçısı Heminquey bu gün də dünyanın ən çox sevilən müəlliflərindəndir. Onu sevməmək, təsirinə düşməmək mümkünsüzdür. Hələ sağlığında şöhrətin zirvəsini fəth edən bu nəhəng yazıçı, ölümündən illər keçsə də insanlar tərəfindən sevilir.

**I Aparıcı:** Ədəbiyyat sahəsində “Nobel” mükafatı ayrı-ayrı əsərlərə görə verilməsə də, heç şübhəsiz, “Qoca və dəniz” povesti İsveç Akademiyası üçün 1954-cü il nominantlarının siyahısından məhz Ernest Heminqueyin seçilməsində ciddi stimul oldu. Bu mükafatın preambulasında da öz əksini tapmışdı. Heminquey ədəbiyyat Nobelinə ““Qoca və dəniz” povestində bir daha nümayiş etdirdiyi təhkiyə ustalığına, habelə müasir nəsrə göstərdiyi təsirə görə” layiq görülmüşdü.

İsveç Akademiyasının üzvü Anders Esterlinq təqdimat nitqində “zəmanəmizin ən görkəmli yazıçılarından biri” adlandırdığı Heminqueyin yaradıcılığı haqqında əsasən “Qoca və dəniz” in timsalında danışmışdı.

Heminquey səhhətində yaranmış problemlər ucbatından mərasimə qatıla bilməmişdi. Onun Nobel mühazirəsini iştirakçılara İsveçdəki ABŞ səfiri Con Kebot təqdim etmişdi. Laureat burada son dərəcə mürəkkəb proses olan ədəbi yaradıcılığın anatomiyasını açmağa çalışmışdı.

**II Aparıcı:** Heminqueyin bir sıra əsərləri ilk dəfə onun ölümündən sonra çap olunmuşdu. Lakin 20-ci illər Paris həyatı ilə bağlı "Həmişə səninlə olan bayram" adlı xatirələri istisna olunmaq şərti ilə qalan əsərlər milyonların tanıdığı və sevdiyi sənətkarın portretinə yeni heç bir cizgi əlavə edə bilməmişdi.
**I Aparıcı:** Heminquey yazı yazanda qələm, kağız və yazı makinasından istifadə edib. Yazıçı bu haqda deyib: "Yazı yazmağa başlayanda səndəki həvəs oxucuya ötürülməyə bilər. Belə vaxtlarda yazı makinası daha faydalıdır, çünki istifadəsi daha rahatdır və əyləncəlidir. Makina ilə yazanda səhvləri rahat görmək olur".

Ernest Heminquey yaradıcılığı həm sağlığında, həm də ölümündən sonra diqqət mərkəzində olmuş, davamlı mübahisə və polemika mövzusuna çevrilmişdi. Onun haqqında təriflər də deyilmiş, yazıçını məhdudluqda, üslub bəsitliyində, mövzu kasadlığında, təkrarçılıqda günahlandırmağa cəhdlər də göstərilmişdi. Lakin Heminquey bu gün də dünya miqyasında çox tanınan, tərcümə olunan və oxunan amerika müəlliflərindən biri olaraq qalmaqdadır. Yazıçının "Qoca və dəniz" povesti, "Əlvida, silah", "Kilimancaro qarları" habelə bir sıra digər əsərləri azərbaycan dilinə də tərcümə edilmişdir.

## Ədəbiyyat siyahısı


### *Əsərləri*

Seçilmiş əsərləri. - Bakı : Şərq-Qərb, 2010. - 752 s. - (Nobel Mükafatı Laureatı).

Əcəl zəngi. - Bakı : Avrasiya Press, 2006. - 472 s. - (Dünya Ədəbiyyatı).

Qadınsız kişilər. - Bakı : Tərcümə mərkəzinin kitabları, 2015. - 472 s. : foto., il. - (cildli).

Qoca və dəniz : povest. - Bakı : Altun Kitab, 2009; 2012. - 128 s. : il. (Məktəblinin kitabxanası. Dünya ədəbiyyatından seçmələr).

Qoca və dəniz : povest. - Bakı : Qanun ; Bakı : "Əli və Nino" nəşriyyatı, 2011. - 96 s. : foto., il.

Seçmə hekayələr : hekayələr. - Bakı : Altun Kitab, 2018. - 208 s.

Zəng kimin üçün çalınır : roman. - Bakı : Çaşıoğlu, 2004. - 423 s.

### *Kitablarda*

Əlli min //Amerika ədəbiyyatı antologiyası. - Bakı : Şərq-Qərb, 2013. – S.189 - 218. - (Dünya Ədəbiyyatı Antologiyaları). - (cildli).

Heç kim heç vaxt ölmür // Heç kim heç vaxt ölmür : Dünya ədəbiyyatından seçmələr. - Bakı : Mütərcim, 2010. - S. 188-206.

Qatillər // XX əsr dünya ədəbiyyatı antologiyası : 3 cilddə : povestlər. - Bakı : Şərq-Qərb, 2011. – C.2. - S. 147-159. - (Dünya Ədəbiyyatı Antologiyaları).

Məğlubedilməz// Amerika ədəbiyyatı antologiyası. - Bakı : Şərq-Qərb, 2013. – S.151-187. - (Dünya Ədəbiyyatı Antologiyaları). - (cildli).

Yağış altındakı pişik : hekayə // Araya girən qadın : hekayələr. - Bakı : Hədəf Nəşrləri, 2015. – S. 27-36. - (Cib kitabları silsiləsi = Amerika yazarları ; 4).

### *Elektron resurslar*

Zəng kimin üçün çalınır [Elektron resurs]. - Bakı : İnnovativ Tədris Mənbələri (İTM) QSC, 2012. - 1 el. opt. disk (CD-ROM) : birrəngli ; 12 sm. - (Nizami layihəsi). - (qutuda).

### *Əsərləri dövri mətbuatda*

Ernest Heminqueyin məktubları // Ədəbiyyat qəzeti. - 2016. - 1 oktyabr. - № 36. - S. 29.

Körpüdəki qoca : hekayə // Kaspi. - 2014. - 1 mart. - № 37. - S. 17.

Yad ölkədə : hekayə // Ədəbiyyat qəzeti. - 2016. - 3 sentyabr. - № 32. - S. 20-21.

Yağış altındakı pişik : hekayə // Naşir. - 2015. - № 2 / sentyabr-oktyabr. - S. 86-88.

Yaxşı yazıçı olmağa bircə ölüm əngəldir // Ədəbiyyat qəzeti. - 2014. - 13 iyun. - № 22. - S. 6.

Yalnız sevgi və ölüm haqqında : Heminquey: "Hər gün qaldığım yerdən yazmağa davam edirəm" // Kaspi. - 2014. - 13 dekabr. - № 205. - S. 12-13.

Yazıçı işi : esse // Ədəbiyyat qəzeti. - 2016. - 13 fevral. - № 6. - S. 22.

### *Haqqında*

**Ağaoğlu M.** "Bir yazıçının ən böyük sərvəti nədir?" sualına Heminquey cavabı // Ədəbiyyat qəzeti. - 2015. - 6 iyun. - № 36/37. - S. 24.

**Başıbəlalı Heminquey** // Kaspi. - 2017. - 4 noyabr. - № 186. - S. 14.

**Həsən M.** İnsan, dəniz və tale : [Çingiz Aytmatovun "Dəniz kənarıyla qaçan Alabaş" və Heminqueyin "Qoca və dəniz" povestləri haqqında] // Ədəbiyyat qəzeti. - 2017. - 4 mart. - № 8. - S. 28-29.

**Hüseynzadə X.** Doğulmadan ölən istedad : [amerikalı yazıçı Ernest Heminqueyin ilk dəfə 1936-cı ildə işığa çıxan "Kilimancaro qarları" hekayəsi haqqında] // Ədəbiyyat qəzeti. - 2018. - 9 iyun. - № 23. - S. 27.

**İmran G.** Ernest Heminquey - Həmişə səninlə olan bayram // Ədəbiyyat qəzeti. - 2017. - 11 noyabr. - № 40. - S. 22.

**Qismət A.** Boksçu Heminquey, şahmatçı Nabokov // Ədəbiyyat qəzeti. - 2018. - 18 avqust. - № 31. - S. 31.

**Qismət A.** Qadınların hissiyatı ilə oynayan yazıçılar // Ədəbiyyat qəzeti. - 2018. - 14 iyul. - № 27. - S. 23.

**Qismət A.** Nasirlər necə yazıb? Yaxud fiziki əzab yazıçını daha yaxşı yazmağa vadar edir // Ədəbiyyat qəzeti. - 2018. - 19 may. - № 19. - S. 28.

**Nədən Paris Heminqueyi** unudur? : amerikalı yazıçı və jurnalist Ernest Heminquey // Kaspi. - 2014. - 6 sentyabr. - № 143. - S. 15.

**Pərvin.** Əbədiyyət, yoxsa boşluq?!. : [Ernest Heminquey haqqında] // 525-ci qəzet. - 2019. - 25 may. - № 80. - S. 17.

**Yazıçılar Nobel kürsüsündə** // Kaspi. - 2014. - 23 avqust. - № 137. - S. 11.

# **Amerikan ədəbiyyatının təkrarsız dühası**

(metodik vəsait)

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 31
Çapa imzalanmışdır: 13.06.2019
Tirajı:100
Pulsuz